# Bölgələrimizlə tanışlıq şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayacaq













Martın 15-də Yasamal rayon məktəbliləri "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Naxçıvan şəhərinə yola salınıblar.

Tədbirdə çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov xalqımızın gələcəyi olan uşaqlara göstərilən dövlət qayğısından, gənc nəslin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən söz açıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasına səyahətdə Yasamal rayonunun məktəblərinin IX-XI siniflərində təhsil alan 27 şagirdi iştirak edir. Məktəblilər 3 gün ərzində Naxçıvanın tarixi, maddi-mədəniyyət nümunələri, turizm mərkəzləri və başqa gəzməli-görməli yerləri ilə tanış olacaqlar.

Məktəbli Fidan İbrahimova layihənin əhəmiyyətindən danışaraq deyib: "Ölkəmizi tanıyaq" devizi ilə reallaşdırılan maarifləndirici tur-aksiya biz gənclərin yaddaşında silinməz izlər buraxacaq. Biz tarixi yerləri görəcək, onlar haqqında məlumatlar əldə edəcəyik. Bu layihə çərçivəsində ölkəmizdə gedən inkişaf proseslərinin əyani şahidi olacağıq. Bu şəraiti bizə yaratdığı üçün dövlətimizin başçısına minnətdarıq".

Yolasalma mərasimi konsert proqramı ilə davam edib.

* * *

"Ölkəmizi tanıyaq" tur-aksiyasının Astara-Quba-Qusar-Xaçmaz marşrutu iştirakçılarının yola salınması mərasimi keçirilib.

Mərasimdə rayon icra hakimiyyətinin nümayəndələri, valideynlər, şəhər sakinləri iştirak ediblər.

Qrupun rəhbəri Şərəbanu Məmmədova deyib ki, dövlət başçısının təşəbbüsü ilə keçirilən tur-aksiyanın iştirakçıları - Astara rayonunun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onların müəllimləri bu gün Quba rayonuna yola düşürlər. Aksiyanın iştirakçıları Quba, Qusar və Xaçmaz rayonlarının tarixi abidələri, görməli yerləri ilə yaxından tanış olacaqlar.

Tur-aksiyanın məktəblilərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayacağını vurğulayan qrup rəhbəri şagirdlərin və müəllimlərin ölkəmizi daha yaxından tanımaları üçün yaradılan şəraitə görə minnətdarlığını ifadə edib.

Quba-Qusar-Xaçmaz bölgəsində son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları dörd gün müddətində bütün bunlar barədə məlumat alacaq, eyni zamanda Quba Soyqırımı Memorial Kompleksini ziyarət edərək erməni vəhşiliyinin əyani şahidi olacaqlar.

İştirakçılar yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbədə, Quba xalçaçılıq emalatxanasında, Cümə məscidində, Tağlı körpüdə, "ASAN həyat" kompleksində, qolf meydançasında və digər yerlərdə də olacaqlar.

Məktəblilər Qusar rayonunda "Şahdağ" Turizm Mərkəzi, Şeyx Cüneyd türbəsi, Şəxsiyyətlər Muzeyi, Çənlibel parkı, Xalça muzeyi ilə tanış olacaqlar.

Şagirdlərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları təşkil olunacaq, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

Bu gün "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Lənkəran, Lerik və Yardımlı rayonlarının məktəbliləri də "Quba-Qusar-Xaçmaz" marşrutu üzrə şimal bölgəsinə səyahətə başlayıblar.

***

Ağdaş rayonundan olan 40 şagird Lənkəran-Masallı-Astara marşrutu üzrə yola salınıb.

Rayon icra hakimiyyəti və təhsil şöbəsi işçilərinin, valideynlərin iştirakı ilə Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən yolasalma mərasimində əvvəlcə müasir Azərbaycan dövlətinin qurucusu və memarı ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Mərasimdə Ağdaş Rayon İcra Hakimiyyəti başçısının müavini Aynur Novruzova çıxış edərək Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən tur-aksiyaların yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyəsində, onların vətənimizin tarixini, maddi-mədəniyyət abidələrini, sosial-iqtisadi həyatını daha dərindən öyrənmələrində xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib.

Valideyn Hicran Əliyeva şagirdlərin dünyagörüşünün artmasında, onların azərbaycançılıq ruhunda tərbiyəsində mühüm əhəmiyyət kəsb edən bu tur-aksiyanın təşkilinə görə dövlət başçısına minnətdarlıq edib.

Sonra tur-aksiya iştirakçıları Lənkəran şəhərinə yola düşüblər. Məktəbliləri rayon icra hakimiyyətinin nümayəndəsi, dörd nəzarətçi müəllim və həkim müşayiət edir.

* * *

Şəmkir rayonunun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərindən ibarət 40 nəfərlik qrup "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində Qəbələyə yola salınıb.

Yolasalma mərasimində əvvəl rayon icra hakimiyyətində tur-aksiya iştirakçıları ilə görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov çıxış edərək, şagirdlərə turun məqsədi barədə məlumat verib, onlara səfərlərinin xoş və mənalı keçməsini arzulayıb.

Bildirilib ki, respublikamızda gənclərin hərtərəfli inkişafı üçün gözəl şərait yaradılıb. "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası da gənclərə dövlət qayğısının təzahürüdür. Azərbaycanın regionları ilə tanışlıq məktəblilərin dünyagörüşünü daha da zənginləşdirir, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır.

Sonra Şəmkir Heydər Əliyev Mərkəzinin qarşısında yolasalma mərasimi təşkil olunub. Tur-aksiya iştirakçıları Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Qrupun rəhbəri Davud Süleymanov bölgə müxbiri ilə söhbətində deyib: "Dördgünlük səfər Qəbələ, Şəki, Zaqatala bölgələrini əhatə edəcək. Məktəblilər bu rayonların tarixi, maddi-mədəniyyət abidələri, müstəqillik illərində əldə edilən nailiyyətlər barədə hərtərəfli bilgilər alacaq, şən və mənalı istirahət edəcəklər".

Sonra məktəblilər Heydər Əliyev Mərkəzinin qarşısından Qəbələyə yola salınıblar.

Qeyd edək ki, aksiya çərçivəsində şəmkirli gənclər dörd gün ərzində Qəbələ rayonunda Heydər Əliyev adına Konqres Mərkəzi, "Qəbələnd" İstirahət Mərkəzi, "Beltmann" Piano Zavodu, "Tufandağ" Xizəkçilik Kompleksi və Qəbələ Konserv Zavodu ilə tanış olacaq, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nohur gölünə, Vəndam şəlaləsinə, udilərin yaşadığı Nic kəndinə ekskursiya edəcəklər. Şəkidə Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndində yerləşən qədim Alban məbədi ilə, Zaqatala rayonunda isə Zaqatala Tarixi Mədəniyyət Qoruğu, Dədə Qorqud meydanı ilə tanış olacaqlar.

* * *

Tərtər rayonunun məktəbliləri Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə yola salınıblar.

Tərtər şəhərindəki Heydər Əliyev Mərkəzində tur-aksiya iştirakçıları ilə görüş keçirilib. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək ölkəmizdə gənc nəslin inkişafı üçün yaradılan şəraitdən, gənclərin dünyagörüşünü daha da zənginləşdirmək, onlara vətənimizi daha yaxından tanıtmaq məqsədilə keçirilən tur-aksiyanın əhəmiyyətindən danışıb. Respublikamızın hər bir bölgəsinin özünəməxsus xüsusiyyətlərinin, təbiətinin, tarixi abidələrinin, adət-ənənələrinin, kulinariyasının olduğunu vurğulayaraq tur-aksiya iştirakçılarına getdikləri yerlər haqqında geniş məlumatlar əldə etməyi arzulayıb.

Şagirdlər Heydər Əliyev Mərkəzində ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar. Tərtər şəhərinin mərkəzi meydanında keçirilən yolasalma mərasimində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin işçiləri və valideynlər məktəblilərə tövsiyələrini veriblər.

Yolasalma mərasimində bildirilib ki, məktəbliləri dörd gün ərzində Qəbələ, Şəki və Zaqatala rayonlarında çox maraqlı ekskursiyalar gözləyir. Onlar Şəki şəhərində Dövlət Tarix-Memarlıq Qoruğu, Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi, Sənətkarlar məhəlləsi və Kiş kəndində yerləşən qədim Alban məbədi ilə tanış olacaqlar. Tur çərçivəsində məktəblilər Zaqatala Tarix-Mədəniyyət Qoruğu, Heydər parkı, Dədə Qorqud meydanı, tarix-diyarşünaslıq muzeyi, fındıq emalı zavoduna, Qəbələdə isə Heydər Əliyev Mərkəzinə, tarix-diyarşünaslıq muzeyinə, Heydər Əliyev adına Konqres Mərkəzinə, "Qəbələnd" İstirahət Mərkəzinə, "Beltmann" Piano Zavoduna, "Tufandağ" Xizəkçilik Kompleksinə və Qəbələ Konserv Zavoduna səfər edəcəklər. Həmçinin Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nohur gölünə, Vəndam şəlaləsinə, Yengicə kəndindəki zooparka udilərin yaşadığı Nic kəndinə gedəcəklər. Səfər çərçivəsində intellektual oyunlar, musiqili-əyləncəli proqramlar da təşkil olunacaq.

Tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra onlar üçün ayrılmış xüsusi avtobuslarla Qəbələ-Şəki-Zaqatala istiqamətində yola düşüblər.

* * *

Yevlax rayonunun məktəblilərinin Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyası başlayıb. Tur-aksiya zamanı yevlaxlı məktəblilər ölkəmizin şimal bölgəsinin görməli yerləri, təbiəti, tarixi abidələri, müasir inkişafı ilə tanış olacaqlar.

Tur-aksiyada iştirak edən məktəblilərlə görüş zamanı Yevlax Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elnarə Məmmədova və Təhsil şöbəsinin müdiri Zərifə Məmmədova çıxış edərək Prezident İlham Əliyevin tövsiyəsinə əsasən təşkil olunan aksiyanın əhəmiyyətindən danışıb, şagirdlərin tur-aksiyadan çox şey öyrənəcəklərini bildiriblər.

Diqqətə çatdırılıb ki, məktəblilər 4 gün ərzində Quba rayonunda Cümə məscidi, Soyqırımı Memorial Kompleksi, xalçaçılıq emalatxanası, Tağlı körpü, qolf meydançası ilə tanış olacaq, Qırmızı qəsəbəyə, Xınalıq yolundakı şəlaləyə, Qusar şəhərinə, rayonun Həzrə kəndindəki Şeyx Cüneyd türbəsinə və "Şahdağ" Turizm Mərkəzinə, Xaçmaz rayonunda isə Xalça və Şəxsiyyətlər muzeylərinə, Çənlibel parkına, həmçinin "Şabran şəhəri" Tarix Qoruğuna ekskursiya edəcəklər.

Yolasalma mərasimində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin işçiləri və valideynlər məktəblilərə səfərlərlə bağlı tövsiyələrini veriblər.

Tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə çiçəklər qoyub, sonra onlar üçün ayrılmış avtobusla Quba-Qusar-Xaçmaz istiqaməti üzrə yola düşüblər.

Azərbaycan.- 2018.-16 mart.- S.10.